# Hər bir azərbaycanlının Prezidenti



*Cənab İlham Əliyevin xalqımızın etimadını qazanaraq növbəti müddətə Azərbaycan Prezidenti seçilməsinin birinci ili tamam olur. 2024-cü il fevral ayının 7-də keçirilən növbədənkənar prezident seçkilərində seçicilərin 92,12 faizi Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevə etimad göstərməklə Azərbaycanı qalib və tarixinin ən qüdrətli dövlətinə çevirən uğurlu siyasətin davamına səs verdi.*

***7 fevral 2024-cü ilin növbədənkənar prezident seçkiləri Azərbaycan tarixinə Zəfər seçkisi kimi daxil olmuşdur***

Azərbaycan zəngin seçki təcrübəsi ilə daim dünyanın diqqətində olub. Bu təcrübənin daha da təkmilləşməsi Azərbaycan dövlətinin seçki kampaniyalarının demokratik, şəffaf və beynəlxalq standartlara uyğun keçirilməsində maraqlı olduğunu bir daha təsdiqləyir. 7 fevral növbədənkənar prezident seçkiləri Azərbaycanın demokratik inkişaf tarixinə daha bir uğur səhifəsini yazdı. Bu seçki kampaniyasına beynəlxalq səviyyədə göstərilən maraq müşahidəçilərin, həmçinin prosesi işıqlandıran mətbu orqanların say tərkibində də özünün aydın ifadəsini tapdı. Seçkilərlə bağlı rəylərdə qeyd edildi ki, siyasi kampaniyanın demokratikliyi yüksək səviyyədə təmin edilib, seçici fəallığı həm yaradılan şəraitin, həm də ölkədə görülən işlərin, qazanılan uğurların göstəricisidir.

Prezident İlham Əliyev keçən il yanvar ayının 10-da yerli televiziya kanallarına müsahibəsində qeyd etdiyi kimi, prezident seçkilərinin növbədənkənar keçirilməsinin birinci səbəbi suverenliyimizin tam bərpasıdır. Torpaqlarımızın işğaldan azad edilməsi və ərazi suverenliyimizin tam bərpa olunması epoxal hadisə kimi Azərbaycanın yeni dövrə qədəm qoymasını şərtləndirdi. Bu seçkilər sayca doqquzuncu və ikinci növbədənkənar prezident seçkiləri, eləcə də müasir Azərbaycan tarixində ölkənin ərazi bütövlüyü tam bərpa edildikdən sonra bütün ölkə ərazisində keçirilən ilk seçki olmuşdur. Bu seçkilərin ən şərəfli və qürurlu anı ondan ibarət idi ki, 30 il əvvəl evlərindən didərgin salınan azərbaycanlıların bir hissəsi daha müvəqqəti məskunlaşdıqları bölgələrdə deyil, öz doğma torpaqlarında - Ağdamda, Zəngilanda, Laçında, Şuşada, Füzulidə, Cəbrayılda, Kəlbəcərdə, Xocalıda, Hadrutda səs verdilər. Fevralın 14-də Milli Məclisdə Azərbaycan Prezidenti İlham Əliyev andiçmə mərasimində daxili və xarici siyasət, gələcək illərdə ölkənin tutacağı xətt ilə bağlı geniş nitq söylədi.

Prezident İlham Əliyevin titanik, yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanın mövqeləri siyasi, ticari-iqtisadi münasibətlər baxımından daha da möhkəmləndi. Azərbaycanın beynəlxalq nüfuzu gücləndi və bunun sayəsində tərəfdaşlar ölkəni güclü, müstəqil və etibarlı aktor kimi qəbul etdilər. 2020-ci il Zəfəri ilə Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaradan Prezident hər keçən gün, hər ötən il ölkəmizə uğurlar qazandırır. Bu gün İham Əliyevin təcrübəsi, diplomatiyası, sərkərdəlik qabiliyyəti tək postsovet məkanında deyil, regiondan kənarda da analiz edilir, öyrənilir. Xalqımızın və bütün dünyadakı soydaşlarımızın böyük məhəbbətini, hörmətini qazanıb. Çünki onun hər bir qərarının, hər bir addımının arxasında Vətənə xidmət dayanır. Möhkəm təməl üzərində Prezident İlham Əliyev dünya arenasında yüksək nüfuz qazanmış güclü, qüdrətli dövlət qurub. Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər.

2024-cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərinin əhəmiyyəti və strateji hədəfləri xüsusi məna daşıyır. Bu, yalnız seçki deyildir, həm də Azərbaycanın uğurlarının, qazandığı zəfərlərin tarixi təsbiti və təsdiqi idi. Düşünülmüş iqtisadi siyasət, beynəlxalq qurumlar və aparıcı siyasi aktorlarla qurulmuş praqmatik və səmərəli əlaqələr nəticəsində Azərbaycan dünya siyasət meydanında öz sözünü deyən ölkəyə çevrildi. Qoşulmama Hərəkatına iki dövr üzrə uğurlu sədrlik və BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyət beynəlxalq müstəvidə mövqelərimizi daha da möhkəmləndirdi. Ötən il həm də Bakının BMT-nin ən ali tədbirlərindən biri - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi ilə əlamətdar oldu. Azərbaycanın yüksək təşkilatçılıq və peşəkarlıqla keçirdiyi tədbir bu gün də dünya mediasının diqqət mərkəzindədir.

Ölkə başçısı hər bir dövlətin, cəmiyyətin qayəsini təşkil edən iqtisadiyyatı müasir strateji dövrdə yeni bir səviyyəyə yüksəltdi. Uğurlu xarici siyasət kursu və sabit diplomatik münasibətlər Prezident İlham Əliyev dövrünün mühüm göstəriciləridir. Dünya ölkələri və region dövlətləri ilə qarşılıqlı etimada əsaslanan sağlam münasibətlərin qurulması və inkişaf etdirilməsi xarici siyasət kursunun reallığı və böyük uğurudur. Ölkəmizin qarşısında dayanan bütün vəzifələr yerinə yetirilir. Bütün bunlar Prezident İlham Əliyevin qətiyyətinin, "nəyi, necə və nə vaxt etmək lazımdır mən bilirəm" prinsipini atdığı addımlarda təsdiqini, hər bir vədinin reallıqlarda ifadəsinin göstəricisidir.

Prezident İlham Əliyev ölkəmizə regionun lideri, etibarlı tərəfdaş, tranzit və tolerant respublika imici qazandırdı. "İqtisadi olaraq müstəqil olmayan dövlət siyasi olaraq müstəqil ola bilməz" prizmasından hərəkət edən dövlət başçısı xüsusilə enerji layihələrindən əldə olunan gəlirləri hərbi-strateji hədəflərə, əhalinin sosial-rifah halının yüksəltməsinə yönəltdi. Bütün bunlar Azərbaycanın müstəqil siyasət həyata keçirməsinə geniş imkanlar yaratdı.

Dünya liderləri arasında xüsusi yeri və mövqeyi olan, xalqına tarixi zəfərlər qazandırmış cənab İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə müstəqil dövlətimiz həm də Zəfərdən-Zəfərlərə doğru yeni və etibarlı təminat almışdır. Bu mənada xalqımız və ölkəmiz növbədənkənar prezident seçkiləri ilə müstəqillik tariximizin indiyə qədərki uğurlu inkişaf yoluna yekun vurmuş və daha böyük inkişafın geniş üfüqlərini nümayiş etdirən yeni dövrə qədəm qoymuşdur. 21 illik inkişafın möhtəşəm hesabatını təqdim edən cənab İlham Əliyev həm də daha böyük gələcəyə təminat verə bilən lider olduğunu da təsdiqlədi.

Onun siyasi iradəsi əsasında ölkəmizin inkişafının ardıcıllığını təmin etmək, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini gücləndirmək məqsədilə həyata keçirilən genişmiqyaslı islahatların uğurlu nəticələri göz önündədir. Bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Xalq birmənalı olaraq, Prezident İlham Əliyevin həm daxili, həm də xarici siyasətini müdafiə edir. Dövlət başçısı da yalnız milli maraqlara söykənən müstəqil siyasət həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan siyasət, islahatlar onu göstərir ki, ölkəmizdə bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq.

2003-cü ildən Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı seçilməsindən bu günə kimi atdığı addımlar, verdiyi qərarlar ölkəmiz, eyni zamanda Qafqaz bölgəsi, Türk Dünyası, həmçinin geniş anlamda Türk Dünyası ilə bərabər Yaxın Şərq, Avropa, Asiya üçün çox böyük əhəmiyyətə malik bir dövrdür. Prezident İlham Əliyevin rəhbərliyi dövrü Azərbaycan tarixinin inkişaf, rifah və zəfər dövrüdür. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinə möhtəşəm qızıl hərflərlə daxil olub. Bu gün həmin tarixi vərəqlədikcə bir daha ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev zəkasının, uzaqgörənliyinin, zəngin dövlətçilik təcrübəsinin onun ən layiqli davamçısının müstəqil Azərbaycanın dövlət başçısı kimi fəaliyyətində uğurla davam etdiyini görürük. Prezident İlham Əliyev mövcud şəraitə adekvat yanaşmaları, düzgün və məqsədyönlü qərarları, eyni zamanda müasir dünyanın çağırışlarına uyğun addımları ilə xalqın inamını doğrultdu. Dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyi qorudu, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətini daha da inkişaf etdirərək hər bir azərbaycanlının Prezidenti oldu.






Ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycanın son 200 illik tarixinə Qalib Sərkərdə kimi adını yazdıran Ali Baş Komandan keçmiş qaçqın və məcburi köçkünlərin yurd, torpaq həsrətinə son qoydu. Bu gün dövlət başçımızın rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur dirçəldilir, bu torpaqlara yenidən həyat verilir. Bu torpaqlarda Azərbaycanın müasir şəhərsalma təcrübəsinin dünyaya təqdimatı olmaqla yanaşı, yaradılan şərait vətəndaş amilinin dövlət siyasətinin əsasında dayandığını bir daha nümayiş etdirir.

Zəfər seçkilərinin yüksək seçici fəallığı şəraitində keçməsi torpaqlarımızın Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsinin yaratdığı qürur hissinin nümayişi oldu. Xalqın qalib Liderinə etimadı səsvermənin nəticələrində özünün aydın ifadəsini tapdı. Tarixi Zəfərimizin reallıqları fonunda rəsmi Bakının sözünün dəyəri daha da artır. Bu reallıqların mühüm tərkib hissəsi kimi Böyük Qayıdış Proqramı uğurla icra edilir. Sakinlərinə qovuşan torpaqlarımızda əsl canlanma baş verir. Müstəqillik tariximizin Zəfər seçkilərində inamlı qələbəsi ilə bu gün dünyanın diqqətində olan İlham Əliyevə milyonların inamı, etimadı beynəlxalq səviyyədə də xüsusi vurğulanır. Dövlət başçısına təbrik məktublarında Onun rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlar qeyd edilir. Soydaşlarımızın 30 illik torpaq həsrətinə son qoyan tarixi Zəfərimizin, həmçinin ərazi bütövlüyümüzün və suverenliyimizin müəllifi İlham Əliyevdir. Xalq qalib Liderinə səs verməklə bir daha təsdiqlədi ki, xalq-Prezident birliyi, həmrəyliyi sarsılmazdır, əbədidir.




Seçkidən öncə Azərbaycan mediasına verdiyi müsahibəsində seçkilərin növbədənkənar keçirilməsini çox aydın şəkildə şərh edən cənab Prezident ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdikdən sonra Azərbaycanın yeni dövrə qədəm qoyduğunu açıq şəkildə elan etdi. Yeni dövrün əsas hədəfi qalib ölkənin qalib vətəndaşı, onun sosial rifahının daha da yaxşılaşdırılması, dövlətimizin yeni dövrün çağırışlarına cavab verməsi, yenidən dizayn edilən dünyada mövqelərimizin daha da möhkəmləndirilməsi, regionda qalıcı və davamlı sülhün bərqərar edilməsi, əməkdaşlıq platformasının yaradılmasıdır.

14 fevral Milli Məclisdə keçirilən andiçmə mərasimi Azərbaycanın siyasi təşkilatlanmasının və milli dəyərlərinin bir araya gəldiyi bir tarixdir.

Ölkəmizin sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsi dövlətimizin başçısı İlham Əliyevin hər zaman diqqət mərkəzindədir. Davamlı olaraq həyata keçirilən kompleks tədbirlər sayəsində ölkəmizdə vətəndaşların layiqli həyat şəraiti təmin edilir. Bu istiqamətdə müntəzəm xarakter alan islahatların nəticələrini hər bir Azərbaycan vətəndaşı öz həyatında hiss edir. Gənc nəslin milli-mənəvi dəyərlərimizə sadiq böyüməsi əsas məsələlər sırasında idi.

Dövlət başçısının prioritet kimi qiymətləndirdiyi məsələlər sırasında şübhəsiz ki, onun Qarabağ və Şərqi Zəngəzuru iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi kimi görməsidir. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcək. Prezidentin Naxçıvanla nəqliyyat əlaqəsini vurğulaması Zəngəzur dəhlizinin açılacağına işarədir.

Cənab İlham Əliyevin irəli sürdüyü fikirlər və təkliflər Azərbaycan Respublikasının maraqlarının və inkişafının daha da möhkəmləndirilməsinə yönəlmişdir.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdə qazanılan bütün nailiyyətlər Azərbaycanın öz inkişafının zirvəsində olduğunu ifadə edir. Bir sözlə, dostda güvən, düşməndə qorxu və qısqanclıq hisslərini aşılayan növbədənkənar prezident seçkiləri 20 illik müqəddəs missiyanın yekunu, ölkəmizdə inkişafdan intibaha yol açan yeni ideallar və milli hədəflərə söykənən müasir Azərbaycan tarixinin səhifəsidir.

**Mustafa KAMAL,**
**"Respublika".**